*Layihə*

# Azərbaycan Respublikasında məktəbəqədər təhsilin dövlət standartları

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin dövlət standartları (bundan sonra - dövlət standartları) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na əsasən hazırlanmışdır.

1.2. Dövlət standartlarına verilən ümumi tələblər aşağıdakılardır:

- fərdin, cəmiyyətin, dövlətin maraq və tələbatlarının nəzərə alınması;
- təhsilalanların yaş, fiziki, psixoloji və fizioloji xüsusiyyətləri nəzərə alınmaqla onların sosial, idraki, estetik inkişafının, sadə əmək vərdişlərinə, zəruri həyati bacarıqlara, sosial, milli və ümumbəşəri dəyərlərə yiyələnməsinin prioritet hesab edilməsi;
- uşaqların məktəb təhsilinə hazırlanmasının təmin olunması;
- məktəbəqədər təhsil müəssisəsinin fəaliyyətinin və təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsində, akkreditasiyasında və attestasiyasında təhsil standartlarının əsas götürülməsi.

1.3. Məktəbəqədər təhsil üzrə müvafiq kurikulumlar dövlət standartları əsasında hazırlanır və həyata keçirilir.

1.4. Məktəbəqədər təhsilin dövlət standartları 5 il müddətinə qüvvədədir.

1.5. Məktəbəqədər təhsilin dövlət standartları aşağıdakıları müəyyən edir:

- məktəbəqədər təhsilin məzmununu;
- məktəbəqədər təhsilin idarəolunmasını;
- məktəbəqədər təhsilin infrastrukturunu, maddi-texniki və tədris bazasını;
- məktəbəqədər təhsil sistemində təhsilverənlərin keyfiyyət göstəricilərini;
- məktəbəqədər təhsil sistemində təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini.

## 2. Məktəbəqədər təhsilin məzmunu

2.1. Məktəbəqədər təhsilin dövlət standartlarının müəyyənləşdirilməsində nəticəyönümlük, uşaqyönümlük, şəxsiyyətyönümlük, inkişafyönümlük, tələbyönümlük, varislik, inteqrativlik, millilik və dünyəvilik prinsipləri didaktik əsas hesab olunur.

2.2. Məktəbəqədər təhsilin məzmunu uşaqlarda aşağıdakı keyfiyyətlərin ilkin səviyyədə formalaşmasının təmin olunmasına yönəldilir:

- cəmiyyətə sosial uyğunlaşma;
- birgəfəaliyyət və ünsiyyət mədəniyyəti;
- müstəqillik, məsuliyyət və cavabdehlik hissi, öz qüvvəsinə inam, iradi xüsusiyyətlər;
- müstəqil öyrənmə və qərar qəbuletmə meylinin təşəkkülü;
- ətraf aləmin dərk olunması, təbiətə və insanlara həssas münasibət;
- estetik dünyagörüşü, texniki və humanitar sahələr üzrə bacarıqlar;
- sağlamlığın qorunması istiqamətində gigiyenik bacarıqlar;
- özünün və digərlərinin hüquqlarına hörmət hissi.

## 3. Məktəbəqədər təhsilin idarə olunması

3.1. Məktəbəqədər təhsilin idarəolunması dövlət-ictimai xarakter daşıyır.

3.2. Məktəbəqədər təhsilin idarə olunmasında aşkarlıq, şəffaflıq, demokratiklik, inkişafın monitorinqi, hesabatlılıq, məsuliyyətin bölüşdürülməsi prinsipləri əsas tutulur.

3.3.Məktəbəqədər təhsil müəssisəsinə rəhbərliyi, bir qayda olaraq, ali ixtisas təhsilli, məktəbəqədər təhsil sahəsində təcrübəsi olan şəxs həyata keçirir. Rəhbər şəxsin vəzifə funksiyaları və səlahiyyətləri “Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi” ilə müəyyən edilir.

3.4. Dövlət məktəbəqədər təhsil müəssisəsində ali idarəetmə orqanı, bir qayda olaraq, ictimai əsaslarla fəaliyyət göstərən Pedaqoji Şura hesab edilir. Pedaqoji Şuranın Əsasnaməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunur.

3.5. Özəl və bələdiyyə məktəbəqədər təhsil müəssisələrində ali idarəetmə orqanı öz Nizamnaməsi ilə müəyyən olunur.

3.6. Məktəbəqədər təhsil müəssisəsində digər idarə və özünüidarə orqanlarının yaradılması qaydaları və səlahiyyətləri “Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi” ilə müəyyən edilir.

## 4. Məktəbəqədər təhsilin infrastrukturu, maddi-texniki və tədris bazası

4.1. Məktəbəqədər təhsil üzrə dövlət təhsil kurikulumlarının yerinə yetirilməsini təmin etmək məqsədilə məktəbəqədər təhsil müəssisələrində əlverişli infrastruktur və zəruri maddi-texniki və tədris bazası yaradılır.

4.2. Məktəbəqədər təhsilin infrastrukturuna daxildir: təhlükəsiz təhsil şəraiti, pedaqoji kadrlarla təminat, normativlərə cavab verən binalar (yardımçı bina), həyətyanı sahə, sadə idman qurğuları, rabitə, su, istilik, elektrik sistemləri, alternativ enerji mənbələri, internet xidməti, sağlamlıq imkanları məhdud olan uşaqlar üçün müvafiq şərait.

4.3. Məktəbəqədər təhsil müəssisəsinin maddi-texniki bazasına daxildir: qrup, yataq və oyun otaqları, uşaq mebelləri, musiqi və idman zalları, metodiki kabinet, tibb otağı, izolyator, yeməkxana, mətbəx, mətbəx avadanlıqları, ərzaq anbarı, yumşaq inventar anbarı, camaşırxana.

4.4. Məktəbəqədər təhsilin tədris bazasına daxildir: metodik ədəbiyyat, əyani vəsaitlər, masaüstü oyunlar, didaktik, nümayişetdirici və paylayıcı materiallar, ekoloji cəhətdən təhlükəsiz oyuncaqlar, texniki təlim vasitələri, uşaq bədii ədəbiyyatı.

## 5. Məktəbəqədər təhsil pilləsində təhsilverənlərin keyfiyyət göstəriciləri

5.1. Məktəbəqədər təhsil müəssisələrində pedaqoji işə, bir qayda olaraq, məktəbəqədər pedaqoji ali və ya orta-ixtisas təhsilli kadrlar qəbul edilir.

5.2. Məktəbəqədər təhsil sistemində təhsilverənlərin keyfiyyət göstəriciləri, əsasən, aşağıdakılardır:

- dövrün və mövcud standartların tələblərinə uyğun elmi-nəzəri səviyyə;
- metodik ustalıq və səriştəlilik;
- uşaq və valideynlərlə ünsiyyət və əməkdaşlıq bacarığı;
- pedaqoji etika və mənəvi-əxlaqi keyfiyyətlər;
- cavabdehlik və məsuliyyət;
- informasiya-kommunikasiya texnologiyalarından istifadə;
- pedaqoji fəaliyyətin planlaşdırılması və təşkili üzrə bacarıqlar;
- təhsil texnologiyalarına yaradıcı yanaşma;
- innovativ layihələrdə iştirak etmə;

- özünütəhsil və müəssisənin idarəolunmasında iştirak.

## 6. Məktəbəqədər təhsilin yaş səviyyələri və inkişaf sahələri üzrə təlim nəticələri

**6.1. Erkən yaş dövrü və inkişaf sahələri üzrə təlim nəticələri:**

6.1.1. Erkən yaş (1-3 yaş) dövrü üzrə ümumi təlim nəticələri:

- sadə fiziki hərəkətləri yerinə yetirir;
- sadə gigiyena qaydalarına əməl edir;
- masa arxasında davranışını ümumi qaydalara əsasən tənzimləyir;
- həyatına və sağlamlığına təhlükə yarada biləcək əşyaları sadalayır;
- özünü, ailə üzvlərini və Vətənini adlandırır;
- sadə suallar əsasında danışır;
- müşahidə etdiyi əşyaları adlandırır;
- sadə riyazi təsəvvürlərə malik olduğunu nümayiş etdirir (az, çox, boyük, kiçik, uzun, qısa);
- ölçü anlayışını başa düşdüyünü nümayiş etdirir;
- dairəvi əşyaları adlandırır;
- təsvir vasitələrindən təyinatına görə istifadə edir;
- rəngləri (qırmızı, sarı, yaşıl) adlandırır;
- hərəkətlərini musiqinin melodiyasına uyğunlaşdırır;
- ilkin ünsiyyət bacarıqları nümayiş etdirir;
- hissləri başa düşür və adekvat cavab verir.

6.1.2. Erkən yaş (1-3 yaş) dövrü üzrə inkişaf sahələrinə aid təlim nəticələri:

**Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik**

- sadə fiziki hərəkətləri yerinə yetirir;
- sadə gigiyena qaydalarına əməl edir;
- masa arxasında davranışını ümumi qaydalara əsasən tənzimləyir;
- həyatına və sağlamlığına təhlükə yarada biləcək əşyaları sadalayır.

**İdrakın inkişafı**

- özünü, ailə üzvlərini və Vətənini adlandırır;

- sadə suallar əsasında danışır;

- müşahidə etdiyi əşyaları adlandırır;

- sadə riyazi təsəvvürlərə malik olduğunu nümayiş etdirir (az, çox, boyük, kiçik, uzun, qısa);

- ölçü anlayışını başa düşdüyünü nümayiş etdirir;

- dairəvi əşyaları adlandırır.

**Estetik və yaradıcı inkişaf**

- təsvir vasitələrindən təyinatına görə istifadə edir;

- rəngləri (qırmızı, sarı, yaşıl) adlandırır;

- hərəkətlərini musiqinin melodiyasına uyğunlaşdırır.

**Sosial-emosional inkişaf**

- ilkin ünsiyyət bacarıqları  nümayiş etdirir;

- hissləri başa düşür və adekvat cavab verir.

**6.2.  3-4 yaş dövrü və inkişaf sahələri üzrə təlim nəticələri**

6.2.1. Orta qrup (3-4 yaş) dövrü üzrə ümumi təlim nəticələri:

- fiziki hərəkətləri müvazinətini saxlayaraq yerinə yetirir;

- ilkin gigiyena qaydalarını mənimsədiyini nümayiş etdirir;

- masa arxasında yemək dəstindən istifadə bacarığını nümayiş etdirir;

- həyatına və sağlamlığına təhlükə yarada biləcək əşyaları əlamətlərinə görə fərqləndirir;

- özü, ailəsi və Vətəni haqqında suallara cavab verir;

- əşyalar və sadə süjetli şəkillər üzrə danışır;

- müşahidə etdiyi əşyaları fərqləndirir;

- əşyalarla 3 dairəsində riyazi əməliyyatlar yerinə yetirir;

- əşyaları forma və ölçüsünə görə fərqləndirir;

- həndəsi fiqurları adlandırır;

- sadə təsvirlər çəkir;

- təsvirlərində uyğun rənglərdən istifadə edir;

- musiqini anladığını ifa bacarığı ilə nümayiş etdirir;

- sadə ünsiyyət etiketlərinə əməl edir;

- arzu, hiss və istəklərini ifadə edir.

6.2.2. Orta qrup (3-4 yaş) dövrü üzrə inkişaf sahələrinə aid təlim nəticələri:

**Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik**

- fiziki hərəkətləri müvazinətini saxlayaraq yerinə yetirir;
- ilkin gigiyena qaydalarını mənimsədiyini nümayiş etdirir;
- masa arxasında yemək dəstindən istifadə bacarığını nümayiş etdirir;
- həyatına və sağlamlığına təhlükə yarada biləcək əşyaları əlamətlərinə görə fərqləndirir.

**İdrakın inkişafı**

- özü, ailəsi və Vətəni haqqında suallara cavab verir;
- əşyalar və sadə süjetli şəkillər üzrə danışır;
- müşahidə etdiyi əşyaları fərqləndirir;
- əşyalarla 3 dairəsində riyazi əməliyyatlar yerinə yetirir;
- əşyaları forma və ölçüsünə görə fərqləndirir;
- həndəsi fiqurları adlandırır.

**Estetik və yaradıcı inkişaf**

- sadə təsvirlər çəkir;
- təsvirlərində uyğun rənglərdən istifadə edir;
- musiqini anladığını ifa bacarığı ilə nümayiş etdirir.

**Sosial-emosional inkişaf**

- sadə ünsiyyət etiketlərinə əməl edir;
- arzu, hiss və istəklərini ifadə edir.

**6.3. 4-5 yaş dövrü və inkişaf sahələri üzrə təlim nəticələri**

6.3.1. Böyük qrup (4-5 yaş) dövrü üzrə ümumi təlim nəticələri:

- fiziki hərəkətləri verilən komandaya uyğun yerinə yetirir;
- müəyyən olunmuş gigiyena qaydalarına əməl edir;
- masa arxasında mədəni-davranış qaydalarına əməl edir;
- həyatına və sağlamlığına təhlükə yarada biləcək əşyalarla təhlükəsiz davranma bacarıqları nümayiş etdirir;
- özü, ailəsi və Vətəni haqqında məlumat verir;
- müşahidə etdikləri barədə danışır;

- ətraf aləmdə baş verən hadisələri adlandırır;
- əşyalarla 5 dairəsində riyazi əməliyyatlar yerinə yetirir;
- əşyaları forma, ölçüsünə və sayına görə qruplaşdırır;
- həndəsi fiqurları fərqləndirir;
- verilmiş süjet əsasında təsvirlər çəkir;
- rəng çalarlarını fərqləndirir;
-musiqini xarakterinə görə fərqləndirir;
- əməkdaşlıq bacarıqları nümayiş etdirir;
- digərlərinin arzu və istəklərtini dəyərləndirir.

6.3.2. Böyük qrup (4-5 yaş) dövrü üzrə inkişaf sahələrinə aid təlim nəticələri:

**Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik**
- fiziki hərəkətləri verilən komandaya uyğun yerinə yetirir;
- müəyyən olunmuş gigiyena qaydalarına əməl edir;
- masa arxasında mədəni-davranış qaydalarına əməl edir;
- həyatına və sağlamlığına təhlükə yarada biləcək əşyalarla təhlükəsiz davranma bacarıqları nümayiş etdirir.

**İdrakın inkişafı**
- özü, ailəsi və Vətəni haqqında məlumat verir;
- müşahidə etdikləri barədə danışır;
- ətraf aləmdə baş verən hadisələri adlandırır;
- əşyalarla 5 dairəsində riyazi əməliyyatlar yerinə yetirir;
- əşyaları forma, ölçüsünə və sayına görə qruplaşdırır;
- həndəsi fiqurları fərqləndirir.

**Estetik və yaradıcı inkişaf**
- verilmiş süjet əsasında təsvirlər çəkir;
- rəng çalarlarını fərqləndirir;
-musiqini xarakterinə görə fərqləndirir.

**Sosial-emosional inkişaf**
- əməkdaşlıq bacarıqları nümayiş etdirir;
- digərlərinin arzu və istəklərtini dəyərləndirir.

**6.4. 5-6 yaş dövrü və inkişaf sahələri üzrə təlim nəticələri**

6.4.1. Məktəbəhazırlıq qrupu (5-6 yaş) dövrü üzrə ümumi təlim nəticələri:

- fiziki inkişafla bağlı müəyyən olunmuş müxtəlif hərəkətləri yerinə yetirir;
- gigiyena qaydalarını özünənəzarət əsasında nümayiş etdirir;
- masa arxasında süfrə mədəniyyətinə yiyələndiyini nümayiş etdirir;
- həyatına və sağlamlığına təhlükə yarada biləcək hadisələrdən qorunma qaydalarını izah edir;
- özü, ailəsi və Vətəni haqqında kiçik təqdimatlar edir;
- verilmiş mövzu ətrafında danışır;
- ətraf aləmdə baş verən hadisələrə münasibət bildirir;
- hərf və səsləri fərqləndirir;
- hecalar, hecalardan sözlər, sözlərdən cümlələr, cümlələrdən şifahi mətnlər qurur;
- kəsmə əlifba vasitəsi ilə sözlər düzür;
- əşyalarla 10 dairəsində riyazi əməliyyatlar yerinə yetirir;
- hadisələri məkan və zamana görə müqayisə edir;
- həndəsi fiqurları tətbiq edir;
- sadə kompozisiyalar qurur;
- təsvir prosesində rəng çalarlarından istifadə edir;
- ifaçılıq bacarıqları nümayiş etdirir;
- ünsiyyətini sosial normalara əsasən tənzimləyir;
- birgəfəaliyyət bacarıqları nümayiş etdirir.

6.4.2. Məktəbəhazırlıq qrupu (5-6 yaş) dövrü üzrə inkişaf sahələrinə aid təlim nəticələri:

**Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik**

- fiziki inkişafla bağlı müəyyən olunmuş müxtəlif hərəkətləri yerinə yetirir;
- gigiyena qaydalarını özünənəzarət əsasında nümayiş etdirir;
- masa arxasında süfrə mədəniyyətinə yiyələndiyini nümayiş etdirir;
- həyatına və sağlamlığına təhlükə yarada biləcək hadisələrdən qorunma qaydalarını izah edir.

**İdrakın inkişafı**

- özü, ailəsi və Vətəni haqqında kiçik təqdimatlar edir;
- verilmiş mövzu ətrafında danışır;
- ətraf aləmdə baş verən hadisələrə münasibət bildirir;

- hərf və səsləri fərqləndirir;
- hecalar, hecalardan sözlər, sözlərdən cümlələr, cümlələrdən şifahi mətnlər qurur;
- kəsmə əlifba vasitəsi ilə sözlər düzür;
- əşyalarla 10 dairəsində riyazi əməliyyatlar yerinə yetirir;
- hadisələri məkan və zamana görə müqayisə edir;
- həndəsi fiqurları tətbiq edir.

**Estetik və yaradıcı inkişaf**

- sadə kompozisiyalar qurur;
- təsvir prosesində rəng çalarlarından istifadə edir;
- ifaçılıq bacarıqları nümayiş etdirir.

**Sosial-emosional inkişaf**

- ünsiyyətini sosial normalara əsasən tənzimləyir;
- birgəfəaliyyət bacarıqları nümayiş etdirir.

## 7. Uşaq inkişafının təşkili və dəyərləndirilməsi

7.1. Məktəbəqədər təhsil aşağıdakı tələblərə uyğun olaraq təşkil olunur:

- inkişaf sahələrinə uyğun təlim məşğələləri və müxtəlif fəaliyyət növlərindən istifadə edilməsi;
- uşaqların bərabər inkişafının təmin edilməsi;
- sağlamlıq imkanları məhdud olan uşaqlarla müvafiq korreksiya işinin təşkili.

7.2. Məktəbəqədər təhsil müəssisəsi tərəfindən uşaq inkişafının dəyərləndirilməsi aşağıdakı məqsədlərlə aparılır:

- təhsilalanların inkişafı və təlimi haqqında ailələri məlumatlandırmaq;
- inkişafetdirici təlim mühitini davamlı olaraq qiymətləndirmək;
- təhsilalanların bilik, bacarıq və vərdişlərini dəyərləndirmək.

7.3. Uşaqların məktəbə qəbulu zamanı onların inkişafının dəyərləndirilməsi nəticələri əsas kimi götürülmür.